# *Stiven Kinq*

# *Cəhənnəm pişiyi*

Holstona elə gəldi ki, əlil arabasındakı kişi xəstə, qorxmuş və ölməyə hazır vəziyyətdə idi. O belə şeyləri görməyə öyrəşmişdi. Ölüm Holstonun işi idi. O özü-özlüyündə muzdlu qatil kimi fəaliyyət göstərərək "karyera"sı boyunca on səkkiz kişini və altı qadını öldürmüşdü. O ölümün nəyə bənzədiyini bilirdi.
Evdə – daha doğrusu malikanədə soyuq va sakitlik hökm sürürdü. Gələn yeganə səs böyük daş sobada yanan odunların yüngülcə çırtıltısı və çöldə əsən noyabr küləyinin astaca vıyıltısı idi.
"Mən istəyirəm ki, sən bir daha qatil olasan" – deyə qoca kişi dilləndi. Onun səsi titrək və qıcıqlandırıcı idi. "Bilirəm ki, işin elə bundan ibarətdir".
Holston soruşdu: "Kimlə danışmısınız?"
"Sol Logia adlı bir nəfərlə. O deyib ki, sən onu tanıyırsan".
Holston razılıq əlaməti olaraq başını yellədi. Əgər vasitəçi Logia idisə, işlərin şuluğa düşməsindən söhbət belə gedə bilməzdi. Əgər otaqda dinləmə cihazı var idisə qoca kişinin – Droqanın dediyi hər söz tələ idi.
"Kimin canını almağımı istəyirsən?"
Droqan arabasında quraşdırılmış idarəetmə panelindən düyməni basdı və araba qabağa gəldi. Bu yaxın məsafədə Holston qorxunun, yaşlılığın və sidiyin bir-birinə qarışmış sarı çalarlarını hiss edə bilirdi. Onlar Holstonu dəhşətə gətirirdi, ancaq o bunu bildirmədi.
Droqan mülayim səslə dedi: "Sənin qurbanın düz arxandadır".
Holston yerindən sıçradı. Çeviklik onun kimi adam üçün hər şey demək idi və o kifayət qədər çevik idi. O divandan düşmüş, bir dizi üstə yerdə oturmuş halda tikdirdiyi idman üslublu paltoda qoltuğunun altında asılan qoburada olan 45 kalibrli qısa lüləli silaha əl atdı. O, silahı çıxartdı və onu tuşladı... pişiyə.
Holston və pişik bir neçə saniyə gözlərini bir-birindən çəkmədilər. Bu Holston kimi təxəyyülü elə də zəngin olmayan və xurafatdan uzaq biri üçün qəribə an idi. Döşəmədə yarıoturaq vəziyyətdə olduğu həmin müddətdə əlində pişiyə tuşlanmış silahla ona elə gəldi ki, o bu pişiyi tanıyır, lakin eyni zamanda nadir görüntüsü olan bu pişiyi daha əvvəllər haradasa görsəydi mütləq yadında saxlayardı.
Pişiyin üzü tən ortadan iki hissəyə ayrılmış vəziyyətdə idi. Yarısı qara, yarısı ağ. Onun yastı başının ortasından başlayaraq düz burnunun altına – ağzına qədər uzanan xəttin bir tərəfi ağ, digər tərəfi isə qara idi. Qaranlıqda onun gözləri çox böyük görsənirdi və yumru qara bəbəkləri bir növ nifrəti təcəssüm etdirərək parıldayırdı.
Holstonun beynində belə bir fikir əks-səda verdi: "Biz bir-birimizi tanıyırıq".
Sonra isə bu fikir keçib getdi. O silahını kənara qoyaraq ayağa qalxdı. "Mən belə şeyə görə səni öldürə də bilərəm, qoca. Zarafat götürmürəm".
"Mən isə zarafat etmirəm" – deyə Droqan bildirdi. "Əyləş. Bax buna". O, qıçlarını örtən nazik yorğanın altından içi dolu olan zərf çıxartdı.

Holston əyləşdi. Divanın arxasında bükülüb qalan pişik isə yavaşca tullanaraq onun qucağında oturdu. Pişik bir anlığa başını qaldıraraq  yaşıl-qızılı nazik həlqələrlə əhatə olunmuş qapqara bəbəkləri ilə Holstona baxdı, sonra isə başını aşağı salaraq yerini rahatladı və astadan xoruldamağa başladı.
Holston şübhə ilə Droqana baxdı.
Droqan dilləndi: "O çox mehribandır. Əvvəl. Bu gözəl, mehriban məstan bu evdə üç nəfəri öldürüb. Geriyə yalnız mən qalıram. Mən isə yaşlıyam, xəstəyəm... Buna baxmayaraq, əcəlimlə ölməyi üstün tuturam".
"İnana bilmirəm" – Holston dedi. "Siz məni pişiyi öldürmək üçün tutmusunuz?"
"Xahiş edirəm, zərfin içinə baxın".
Holston elə də etdi. Zərf cağ olmayan yüzlük və əlliliklərlə dolu idi. "Burada nə qədər pul var?"
"Altı min dollar. Siz pişiyin öldüyünü sübut edən dəlili mənə gətirdikdən sonra altı min də verəcəyəm.  Cənab Logia deyib ki, siz adətən on iki minə razılaşırsınız?"
Holston qucağındakı pişiyi avtomatik şəkildə sığallaya-sığallaya başını razılıq əlaməti olaraq yellədi. Pişik yatmışdı, astadan xırıldayırdı. Holstonun pişiklərdən xoşu gəlirdi. Əslinə qalsa, onun xoşuna gələn yeganə heyvan elə pişik idi, çünki onlar öz başlarının çarəsinə baxmaq iqtidarında olan heyvanlardır. Allah – əgər Allah varsa – pişikləri mükəmməl, hər şeyə laqeyd ölüm dəzgahı kimi yaratmışdır. Pişiklər heyvanlar aləmində ali təbəqədə dururdular və Holston onlara hörmət edirdi.
"Mən heç nə izah etmək məcburiyyətində deyiləm, amma edəcəyəm" – deyə Droqan sözünə davam etdi. "Yaxşı deyiblər, qabaqcadan məlumatlandırılmış adam silahlanmış adam deməkdir və mən istəməzdim ki, siz bu məsələyə qeyri-ciddi yanaşasınız. Dəli olmadığımı anlamağınız üçün, sözlərimə bəraət qazandırmaq məcburiyyətində olduğumu başa düşürəm".
Holston yenə də başı ilə yelləyərək qocanın sözlərinə qüvvət verdi. O onsuzda bu qəribə "qətl"i törədəcəyini qərara almışdı və uzun-uzadı söhbətə ehtiyac duymurdu. Lakin Droqan danışmaq istəyirdisə, Holston qulaq asacaqdı.
"İlk öncə bilmək istəyirdim ki, mənim kimliyimdən və bu pulların mənbəyindən xəbəriniz varmı?"
"*Droqan Əczaçılıq* şirkətinin sahibisiniz".
"Elədir ki var. Dünyada ən böyük dərman şirkətlərindən biri. Bu isə maddi uğurumuzun təməl daşıdır". – deyə xalatının cibindən balaca, üstündə heç bir yazı olmayan dərman flakonu çıxararaq Holstona uzatdı. "G strukturlu tri dormal fenobarbin. Sırf ölümcül xəstələr üçün nəzərdə tutulur. Son dərəcə aludəçilik yaradan tərkibə malikdir. Birləşməyə ağrıkəsici, sakitləşdirici və hallusinogen daxildir. Bu dərman sayəsində ölümcül xəstələr öz vəziyyətlərini dərk edirlər və onlara alışırlar".
"Siz özünüz də ondan istifadə edirsiniz?"
Droqan suala əhəmiyyət verməyərək sözünə davam etdi: "Bütün dünyada bu dərmandan geniş istifadə olunur. Sintetik maddədir və 50-ci illərdə Nyu Cersi laboratoriyalarımızda inkişaf etdirilmişdir. Bunu yalnız nadir əsəb sisteminə malik pişiklərə tətbiq etməklə kifayətləndik".
"Neçə pişik məhv etmisiniz?"
Droqan gərildi. "Bu, sualın ədalətsiz və qərəzli qoyulmasından başqa bir şey deyil".
Holston çiyinlərini çəkdi.
"Ərzaq və Dərmanlara Nəzarət Administrasiyasının bu dərmanı bəyənməsinə qədər olan 4 sınaq ili ərzində on beş min pişik... mmm.. ölmüşdür.".
Holston fit çaldı. Hər il təxminən dörd min pişik. "Hə, indi sizə elə gəlir ki, bu pişik sizdən qisas almaq üçün qayıdıb?"

Droqan bildirdi: “Mən özümü bir qram da olsa günahkar bilmirəm”. Onun səsi yenidən əsirdi və qıcıqlandırıcı idi. “Sınaqda on beş min heyvan ölüb ki, yüz minlərlə insan – ”
“Əhəmiyyət daşımır” – deyə Holston onun sözünü kəsdi. İnsanların özünə bəraət qazandırması onu təngə gətirirdi.
“Bu pişik burada yeddi ay öncə peyda olub. Mənim pişiklərdən heç vaxt xoşum gəlməyib. İyrənc, xəstəlik daşıyıcıları.. həmişə ortalıqda.. xarabalarda..Allah bilir öz tüklərinə nə qədər mikrob yığırlar.. Həmişə evin içinə girib sənə ağızlarında içalatı tökülmüş nəsə gətirib göstərməyə cəhd edirlər.. Bu pişiyi içəri alan bacım oldu. Onu özü istədi, canı ilə də ödədi”. O, Holstonun qucağında yatan pişiyə ölü nifrətlə baxdı.
“Siz dediniz ki, bu pişik üç adamı öldürüb”.
Droqan danışmağa başladı. Pişik Holstonun qucağında, onun güclü və mütəxəssis qatil barmaqlarının sığalları altında mürgüləyərək astadan xoruldayırdı. Arabir ocaqda şam ağacının necə çıkkıltı ilə yandığını eşidərək pişiyin tük və dəri ilə örtülmüş əzələləri gərilirdi. Konnektikutun ucqarlarında yerləşmiş böyük daş evin ətrafında külək çılğınlıqla vıyıldayırdı. Bu yetişən qışdan xəbər verirdi. Qocanın səsi boğazından vızıltı ilə çıxırdı.
Yeddi ay əvvəl bu evdə dörd nəfər yaşayırdı – Droqan, Droqandan iki yaş böyük olan bacısı Amanda, Amandanın çoxdankı rəfiqəsi, emfizemanın ağır formasından əziyyət çəkən Kerolayn Broudmur (Droqanın sözlərinə görə o, Uestçester Broudmurlarından idi) və iyirmi il Droqanlar ailəsi üçün işləyən Dik Qeyc. Yaşı altmışdan çox olan Qeyc böyük “Lincoln Mark IV” sürürdü, yemək bişirirdi və onlara axşam şerrisi verirdi. Evi yığışdırmaq üçün təmizlikçi qadın gəlib gedirdi. Bu dördlük təxminən iki ilə yaxın bu minvalla bir evdə yaşadılar, cansıxıcı kaftarlar yığını və onların xidmətçisi. Onların yeganə əyləncəsi “Hollivud kvartalları” serialı və kimin kimdən çox yaşayacağını gözləmək idi.
Sonra isə pişik gəldi.
“Onu ilk olaraq görən Qeyc idi, evin ətrafında xısın-xısın gəzərək cığır-bağır salmışdı. Qeyc onu qovmağa çalışdı. O, pişiyə çubuqlar və balaca daşlar atırdı və bir neçə dəfə onu vura bildi. Amma pişiyin getmək niyyəti yox idi. Əlbəttə yox idi, o ki yeməyin iyinə gəlmişdi. Bir dəri bir sümük idi. Bilirsən, insanlar bu heyvanları yay mövsümünün sonunda yolun kənarına atırlar ki, elə oradaca ölüb getsinlər. Tükürpədici, insanlığa xas olmayan hərəkət”.
“Onların beyinlərini qızartmaq dahamı yaxşıdır?”
Droqan onun bu sözlərini qulaqardına vuraraq sözünə davam etdi. O, pişiklərə nifrət edirdi. Həmişə də etmişdi. Pişik çıxıb getmək istəməyəndə Droqan Qeycə göstəriş verdi ki, ona zəhərli yemək versin. Tərkibinə Tri-Dormal-G əlavə olunmuş böyük, gəl-gəl deyən Kalo pişik konservi. Pişik yeməyə yaxınlaşmadı. Elə o vaxtı Amanda Droqan pişiyi gördü və təkidlə bildirdi ki, onu evə almaq istəyir. Droqan onu istəmədiyini bildirdi, amma Amanda öz istədiyinə nail oldu. Həmişəki kimi.
“O, pişiyin qolları arasında içəri gətirdi.” – deyə Droqan sözlərinə davam etdi. “İndi elədiyi kimi o vaxt da astadan xoruldayırdı. Lakin mənə yaxın durmurdu. İndiyə kimi heç vaxt da mənə yaxın gəlməyib. Amanda pişiyin qabağına bir nəlbəki süd qoyaraq dedi: “Balaca yazıq, şirin şey. Acından ölür”. O da, Kerolayn da pişiyə nəzakət göstərməyə başladılar. İyrənc. Bu, əlbəttə ki, onların məndən qisas alma tərzləri idi. İyirmi il əvvəl də hətta – Tri-Dormal-G heyvanlar üzərində sınaq proqramından bu yana pişiklərə olan münasibətimi bilirdilər. Onlar məni qıcıqlandırmaqdan, sancmaqdan həzz alırdılar”. Əzazil baxışlarla gözünü Holstona zilləyərək dedi: “Amma onlar bunu canları ilə ödədilər”.

Mayın ortaları idi. Qeyc səhər yeməyini hazırlamaq üçün qalxdı və Amanda Droqanı pilləkənlərin bitəcəyində sınmış qab və "Friskis" qalıqları arasında uzanan gördü. Onun gözləri yüngülcə həlqəsindən çıxmışdı və tavana zillənmiş vəziyyətində idi. Üz-gözü qan içində idi. Beli və qıçları sınmışdı, onurğa sütunu, sözün əsl mənasında, şüşə kimi çilik-çilik olmuşdu.

"Pişik onun otağında yatırdı" – deyə Droqan sözlərinə davam etdi. "Bacım onunla balaca uşaq kimi davranırdı: "Əzizim, acsan? Çölə çıxıb gəzmək istəmirsən ki?". Zəhər tuluğu olan bacımdan belə sözləri eşitmək biabırçılıq idi. Mənə elə gəlir, pişik miyoldayaraq onu oyatdı. O, oyandı və pişiyin yeməyini qaba tökdü. Yadımdadır, o həmişə deyərdi ki, Sem Friskisi südsüz, quru-quru yeməyi xoşlamır. Elə ona görə bacım içində Friskis olan qab da əlində aşağı düşmək istəyirdi, pişik onun ayaqlarına dolaşmağa başladı. O yaşlı idi, ayaqüstə tarazlığını saxlaya bilmirdi. Özü də yarıyuxulu idi. Onlar pilləkənin düz başına çatdılar, pişik onun ayaqlarına dolaşdı... onu yıxırtdı...".

Hə, bu mümkündür – deyə Holston özü-özlüyündə düşündü. O, qoca qarının pilləkənlərdən aşağı yıxılmasını təsəvvürünə gətirdi, onun şokdan səsini də çıxara bilmədiyini fikirləşdi. Amanda Droqan döşəməyə çırpılar-çırpılmaz Friskislər hər tərəfə səpələnir və qab parçalanır. Nəhayət ki, onun bütün bədəni döşəməyə sərilir, sümükləri sınmış, gözləri parlaq, ağız-burnu isə qanla dolmuş vəziyyətdə. Yüngüldən xoruldayan pişik isə niyyətinin baş tutduğundan razı halda Friskisləri çeynəyə-çeynəyə aşağı enir.

Holston dilləndi: "Bəs müstəntiq nə dedi?"

"Bədbəxt hadisə. Hə, əlbəttə. Amma mən ki bilirəm" – deyə Droqan ona cavab verdi.

"Elə Amanda ilə bu hadisənin baş verdiyi həmin gün niyə pişikdən canınızı qurtarmadınız? Bacınız ki artıq yox idi".

Sözsüz ki, onun pişiyi evdən qovacağı təqdirdə Kerolayn Broudmur onu özünün də evdən gedəcəyi ilə hədələyib. O çox isterik idi, bu məsələ onun üçün ölüm-dirim məsələsinə çevrilmişdi. Xəstə idi və spiritualizm mövzusunda fanatikə çevrilmişdi. Hartforddan olan ekstrasens ona (iyirmi dollar müqabilində) demişdi ki, Amandanın ruhu Semin bədəninə girib. O, Droqana demişdi ki, Sem Amandanın idi, əgər o evdən getsə, özü də onunla birlikdə gedəcək.

İnsan həyatının hər künc-bucağından yaxşı baş açan Holston başa düşmüşdü ki, Droqanla Broudmur uzun müddət sevgili olublar və qoca bir pişiyə görə onu əldən buraxmaq istəmirdi.

"Bu özünə qəsddən başqa bir şey olmazdı" – deyə Droqan sözünə davam etdi. "O, öz xəyalında hələ də varlı qadın idi, pişiyi də qoltuğuna vurub Nyu Yorka, Londona və ya hətta Monte Karloya gedə biləcəyini düşünürdü. Əslində isə o, böyük ailənin sağ qalan ən son nümayəndəsi idi və altmışıncı illərdəki iflasdan sonra qəpiyə güllə atırdı. O, evin ikinci mərtəbəsindəki xüsusi nəzarət altında olan və rütubətli otağında qalırdı. Qadının yetmiş yaşı var idi. Həyatının son iki ilinə qədər siqaret düşkünü idi və onun emfizeması var idi...Mən onun burada qalmağını istəyirdim və əgər bu, pişiyin evdə qalmasını tələb edirdisə..."

Holston razılıq əlaməti olaraq başını tərpətdi və nəsə deməyə çalışırmış kimi qol saatına baxdı.

"İyunun sonuna az qalmışdı, o gecənin bir aləmində öldü. Həkim bunu adi hal kimi qəbul elədi... gəldi və ölüm haqqında şəhadətnaməni yazdı. Bu da belə. Qeyc mənə dedi ki, pişik otaqda idi".

Holston dedi: " Onsuz da əvvəl-axır hamımız gedəcəyik".

"Əlbəttə. Həkim də belə dedi. Lakin mən bilirdim. Mənim yadıma düşmüşdü. Pişiklər qocaların və uşaqların işini daha çox onlar yatmışkən bitirirlər. Nəfəslərini oğurlayırlar.."

"Bu ki qoca arvadların uydurduğu nağıldan başqa bir şey deyil".

Droqan cavabını ləngitmədi: “ Fakta əsaslanan bir çox dırnağarası nağıllarda olduğu kimi. Bilirsən, pişiklər öz pəncələri ilə yumşaq şeyləri yoğurmağı xoşlayırlar. Yastıq, qalın və yumşaq olan örtük.. və ya yorğan. Beşik yaxud yaşlı insana məxsus çarpayı yorğanı. Fiziki cəhətdən zəif adamın üstündə əlavə çəki...”
Droqan birdən-birə susdu, Holston da fikrə getdi. Kerolayn Brudmur yataq otağında yatıb, zədələnmiş ağciyərlərindən nəfəs xırıltı ilə gəlib-gedir, səs otağı rütubətdə saxlayan xüsusi cihazlar və kondisionerin səsində itib-batır. Vahiməli görünüşə malik ağ-qara pişik qoca qarının çarpayısına tullanır, tünd yaşıla çalan qara, parlaq gözləri ilə onun qırışların dərin işlədiyi yaşlı üzünə baxır. Sinəsinə oturur və bütün ağırlığını salır, astadan xoruldayır... Qarının nəfəsi getdikcə ağırlaşır. Sinəsinin üstündəki ağırlıq altında qadının tədricən boğulması ilə pişik də astadan xırıldayır.
Holstonun təxəyyülü elə də zəngin deyildi, amma bədəni yüngülcə əsdi.
O, xırıldayan pişiyi sığallaya-sığallaya dilləndi: “Niyə bunu sadəcə yuxuya vermirsən? İstənilən baytar bu pişiyi 20 dollara o dünyaya göndərər”.
Droqan yenə sözə başladı: “Dəfn mərasimi iyulun 1-də oldu. Kerolaynı bacımın yanında dəfn elədilər. O da belə istəyərdi. İyulun 3-ü Qeyci elə bu otağa çağırdım və ona hörmə səbət verdim... Bir növ qapaqlı gəzinti çantasına oxşayırdı. Nə demək istədiyimi başa düşürsən?”
Holston başını yelləyərək qocanın nə demək istədiyini anladığını bildirdi.
“Mən Qeycə dedim ki, pişiyi bu səbətə qoysun, onu Milforddakı baytara aparsın və orada ona iynə vursunlar. O “ Baş üstə, ser” – deyərək getdi. Həmişəki kimi. Bu, Qeyci sağ gördüyüm axırıncı dəfə idi. Şossedə qəza. Maşın saatda 60 km-dən də az sürətlə getməsinə baxmayaraq körpünün dayağına çırpıldı. Dik Qeyc dərhal həlak oldu. Onu tapanda üzündə cırmaq izləri var idi”.
Beynində bunu təsəvvür edən Holston yenidən sükuta qərq oldu. Otağa sakitlik çökdü, eşidilən yeganə səs ocaqdan gələn çırtaçırt və Holstonun qucağında uzanan pişiyin mülayim xırıltısı idi. Edqar Qestin şeirlərinin birində olduğu kimi : “Qucağımda pişiyim, ocaqdan çıxır isti / Xoşbəxtlərin xoşbəxti, bilirsən bunu indi”.
Dik Qeyc Linkolnı şossedən aşağı doğru sürürdü, o sürəti artırmışdısa belə, bu ən pis ehtimalla saatda 5 mil idi. Yanında həmin gəzinti səbətlərinə bənzəyən hörmə səbət var idi. Dik yola baxır, taksini ötüb keçir və səbətin bir tərəfindən başını çıxardan yarı qara, yarı ağ pişiyə diqqət yetirmir. Pişik düz sürücüyə tərəf boylanır, amma o bunu görmür, çünki böyük yük maşınını ötməyə çalışır. Elə bu vaxt pişik onun sifətinə tullanır, fısıldayır və cırmaqlayır, dırnaqlarını təkrarən onun gözünə salır, gözlərini deşərək onu kor edir. Saatda 60 km sürət, Linkolnun böyük mühərrikinin vıyıltısı və budur pişiyin pəncəsinin biri Dikin gözündə, biri ilə isə onun qaşlarının arasını şiddətlə qazır – bəlkə də Linkoln istiqamətini dəyişərək sağa – taksinin üstünə gedir, maşının verdiyi siqnal qulaqbatırıcıdır, amma Qeyc bunların heç birini nə görə, nə də eşidə bilir, çünki pişik çılğınlıqla miyoldayır, bütün cüssəsi ilə böyük, qara hörümçək kimi onun sifətinə yapışıb, heyvan qulaqlarını geriyə çəkib, yaşıl gözləri cəhənnəm işığı kimi parıldayır, arxa ayaqlarını titrədə-titrədə Qeycin yumşaq boğazını eşir. Maşın o yan-bu yana istiqamət dəyişir və qabaqda artıq körpünün dayağı görsənir. Pişik Linkolndan tullanır, maşın dayağa çırpılır və bomba kimi partlayır.
Holston bərkdən udqundu və boğazında quru şıqqıltı eşitdi.
“ Pişik evə qayıtdı?”
Droqan cavab verdi: “Bir həftə sonra. Elə Dikin dəfn olunduğu gün. Köhnə mahnılarda deyildiyi kimi. Pişik geri qayıtdı”.
“Saatda 60 km sürətlə gedən və qəzaya uğrayan maşından sağ çıxıb? İnanılmazdır!”

“Deyirlər, pişiklər doqquzcanlı olur. O geri qayıdanda fikirləşdim ki, bəlkə də bu....”
Holston mülayim səslə dedi: “Cəhənnəm pişiyidir?”
“Hə, elə də demək olar. Bir növ iblis ki, məni...”
“Cəzalandırsın”.
“Bilmirəm. Amma mən ondan çox qorxuram. Mən onu yedizdirirəm, daha doğrusu, evə gələn qadın onu mənim əvəzimə yedizdirir. Pişik o qadının da xoşuna gəlmir. O deyir ki, bu Allahın lənətinin sifətidir. Hə, o da Konnektikutda yaşayır”. Qoca gülümsəməyə çalışdı, amma bu onda alınmadı. “Mən istəyirəm ki, pişiyi öldürəsən. Son dörd aydır ki, onunla yaşayıram. Künc-bucaqda gəzişir. Mənə baxır. Elə bil ki... gözləyir. Hər gecə otağıma girib qapını da arxamca bağlayıram, amma hələ də fikirləşirəm ki, görəsən səhər durub bunu sinəmdə qıvrılıb uzanaraq xırıldadığını görmə ehtimalım varmı”.
Bayırda külək bədbinliklə sızıldadı, tüstü borusundan uğultu səsi gəldi.
“Nəhayət Sol Logia ilə əlaqə saxladım. Səni tövsiyyə gördü. O səni işinin ustası adlandırdı”.
“Hə. Amma mən tək işləyirəm”.
“Bilirəm. O dedi ki, səni heç vaxt tutmayıblar, səndən heç şübhələnməyiblər də... Həmişə dörd ayaq üstə düşmüsən.. lap pişiklər kimi”.
Holston əlil arabasında oturan qocaya baxdı və birdən onun uzun barmaqlı, əzələli əlləri pişiyin düz boynuna toxundu.
“Mən bunu indi edəcəyəm, istədiyin də elə budur” – deyə Holston mülayim səslə dilləndi. “Boynunu sındıracağam, heç xəbəri də olmayacaq ...”
Droqan qışqırdı: “Yox!”. Uzun, titrək nəfəsini içinə çəkdi. Solğun yanaqları qıpqırmızı oldu. “Burada yox. Burada yox. Başqa yerdə”.
Holston kefsiz şəkildə gülümsədi. Yatmış pişiyin başını, çiyinlərini və belini sığallamağa başladı. “Yaxşı. Razıyam. Bədənini istəyirsiniz?”
“Yox. Öldür onu. Basdır”. Fasilə verdi. O, arabasını irəli sürdü. “Mənə onun quyruğunu gətirərsən, onu ocağa atıb necə yandığını izləmək istəyirəm”.

Holston xüsusi təlimat əsasında hazırlanmış “siklon spoyler” mühərrikli 1973-cü il istehsalı olan Plimut sürürdü. Maşın bir neçə yerdən əzilmişdi və üstündə çoxlu sayda cızıqlar var idi, kapotu həmişə 20 dərəcə altında açıq qalırdı. Differensial ötürməni və maşının arxa hissəsini özü yeniləmişdi. Ötürücü Penzi, mufta isə Herst firmasına məxsus idi. Təkərlər isə ən yaxşılarından idi ki, bu təkərlərin üzərində saatda 160 km sürəti sıxmaq olardı.
O, Droqanın evindən çıxanda saat 9:30-dan bir azca keçmişdi. Aypara parça-parça noyabr buludları arasından görünürdü. Maşının pəncərələri açıq idi, Holston yaşlılıq və qorxunun bir-birinə qarışaraq əmələ gətirdiyi sarı çalarlı üfunəti hələ də üst-başında hiss edirdi ki, bu da onun heç xoşuna gəlmirdi. Soyuq şiddətli və sərt idi, kəsirdi. Amma bu yaxşı idi, sarı üfunəti uzaqlaşdırırdı.
O, Pleyser’s Qlen şossesindən və hər yolayrıcısında zəif işıq saçan yol fənərləri ilə aydınlanan şəhərdən saatda 60 km sürətlə keçib getdi. Şəhərdən çıxıb, 35 nömrəli şosseyə doğru irəliləyərkən o, sürəti artırdı ki, Plimut bir az özünə gəlsin. Mühərrik xırıldayırdı, lap pişiyin Droqanın evində Holstonun qucağında uzanıb xırıldadığı kimi. Bu bənzətmə Holstonun dodaqlarına təbəssüm gətirdi. Maşın saatda 70 km-dən bir az yüksək sürətlə qurumuş qarğıdalı saplaqları ilə dolu olan soyuqdan şaxta bağlamış tarlalaraın arası ilə keçib getdi.

Pişik ikiqat qalınlığa malik alış-veriş çantasının içərisində idi, çanta isə yuxarıdan möhkəm iplə bağlanmışdır. Çanta sərnişin oturacağında qoyulmuşdu. Holston pişiyi çantaya qoyanda heyvan yuxulu idi və bütün yol boyu çantanın içindən xırıltı səsləri gəlirdi. Çox güman ki, pişik Holstonun onu xoşladığını fikirləşirdi və özünü onun yanında rahat hiss edirdi. Pişik də onun kimi tək işləməyi sevirdi.
Holston düşündü ki, bu çox qəribə sifarişdir. Sonra isi bunu həqiqi sifariş kimi qəbul etdiyi üçün təəccübləndi. Bu heyvana olan münasibətində qəribə olan şey o idi ki, Holstonun ondan həqiqətən xoşu gəlirdi, aralarında bir növ doğmalıq var idi. Əgər pişik o üç qocanı o biri dünyaya göndərə bilibsə... xüsusən də Qeyci, o Qeyc ki, pişiyi böyük məmnuniyyətlə mikrodalğalı soba böyüklüyündə olan keramika divarları olan qazla dolu kameraya salmaq istəyən baytara aparırdı. Semdən xoşu gəlməyinə baxmayaraq, o öz işini yerinə yetirməli idi. Holston onu tez və əziyyət vermədən öldürməyi düşünürdü. O, maşınını tarlaların birinin yanında saxlayıb, qurbanını çantadan çıxarıb, onun belini sığallayıb, boynunu qırıb, cibindəki bıçaqla quyruğunu üzmək istəyirdi. O düşündü ki, cansız bədəni basdırmalıdır ki, leşyeyən heyvanlara yem olmasın. Bədəni soxulcanlardan xilas edə bilmərəm – deyə Holston fikirləşdi – amma, ən azından, qarğalardan qoruya bilərəm.
Maşın tünd mavi ruh kimi gecə boyunca hərəkət edirdi və Holston beynində bunları düşünürdü ki, elə bu vaxt pişik idarəetmə panelinə oturaraq onu gözləri qarşısına keçdi, təkəbbürlə quyruğunu yuxarı qaldırmış vəziyyətdə ağ-qara sifətini Holstona çevirdi, ağzı isə elə forma almışdı ki, elə bil ona baxıb rişxəndlə gülürdü.
“Şşşşşş — ” deyə Holston fısıldadı. O, sağına nəzər saldı, oturacaqdakı ikiqat qalınlığa malik alış-veriş çantasının bir tərəfi deşilmişdi, ya çeynənib, ya da pəncə ilə yırtılıb. Yenidən qabağına baxdı, pişik pəncələrini qaldırmışdı, oynamaq istəyər kimi onları Holstona tərəf qaldırırdı, onun alnına toxundurdu. Holston özünü geri çəkdi, elə bu zaman yoldan çıxan maşının böyük təkərləri qulaqbatırıcı səs çıxartdı. O, artıq yolu görə bilmirdi, yumruğu ilə paneldə oturmuş pişiyi vurub qovmaq istədi, amma pişik fısıldadı və kürəyindəki tükləri yuxarı qaldırdı, amma yerindən tərpənmədi. Holston yenə də pişiyi vurmağa cəhd elədi, bu dəfə o tullanıb qaçmaq əvəzinə onu öldürməyi planlaşdıran adamın üzünə sıçradı.
*Qeyc* – deyə Holston düşündü – *Eynilə Qeyclə olduğu kimi*
Əyləci sıxdı. Artıq pişik onun başında idi, tüklü qarnı ilə onun gözlərini bağlamışdı, cırmaqlayıb onun bəbəklərini yerə tökmək istəyirdi. Holston bir əli ilə sükandan möhkəm yapışmışdı, digəri ilə isə pişiyi bir neçə dəfə vurdu. Birdən-birə yol gözdən itdi, maşın yolundakı maneələrə ilişərək dərəyə yuvarlanırdı. Güclü zərbə Holstonu irəliyə atdı, pişik isə çılğınlıqla ulayırdı.
O yumruğunu sıxdı və heyvanı var gücü ilə vurdu, amma toxunduğu şey elastik və yumşaq əzələlər yığınından başqa bir şey deyildi.
İkinci zərbə.. və zil qaranlıq.
Ay batmaq üzrə idi. Dan yerinin ağarmasına bir saatdan da az vaxt qalmışdı. Plimut dərənin dibində səhər dumanı arasında yuvarlanıb qalmışdı. Maşının radiatorunun barmaqlığı arasına tikanlı məftil ilişmişdi. Kapot açılmışdı, radiatordan çıxan tüstü səhər dumanına qarışmışdı.
Holston ayaqlarını hiss etmirdi.
O, aşağı baxdı və gördü ki, mühərrik blokunu saxlayan qoruyucu divar sınıb onun ayaqlarına düşərək onları oturacağa pərçimləyib.
Çöldə – haradasa uzaqda – qorxudan tir-tir əsən qurbanına hücum edən bayquşun çığırtısı eşidildi.

İçəridə – yaxında isə pişiyin davamlı xırıltısı.
Pişik, elə bil ki, dişlərini ağardırdı, “Alisa möcüzələr diyarında”kı pişiyin etdiyi ki.
Holston ona baxırdı, o isə ayağa qalxdı, kürəyinin tüklərini qaldırdı, bədənini əsdirdi. Çevik hərəkətlə Holstonun çiyninə tullandı. O isə öz növbəsində pişiyi uzaqlaşdırmaq üçün əllərini qaldırmağa çalışdı.
Qolları işləmirdi.
*Onurğam zədələnib* – deyə o düşündü. *Qıc olmuşam. Bəlkə də müvəqqəti. Lakin, çox güman ki, həmişəlik.*
Pişik onun qulağının dibində fısıldadı, Holstonu elə bil ildırım vurdu.
Hoston çığırdı: “Düş üstümdən”.
Onun səsi boğuq və quru idi. Pişik bir anlığa bədənini gərdi, sonra isə sakitləşdi. Birdən-birə dırnaqlarını çıxararaq Holstonun yanaqlarını cırmaqlamağa başladı. Boğazının içinə ağrı sancıldı. Sifətini qan apardı.
Ağrı.
*Hiss.*
Başını sağa çevirməyə çalışdı, alınmadı. Sifəti yumşaq, quru tüklərə bürünmüşdü. Holston dişləri ilə pişikdən yapışmaq istədi. Pişik şaşqın vəziyyətdə qıcıqlandırıcı səs çıxartdı və oturacağın üstünə tullandı. Qulaqlarını geriyə verərək, Holstona acıqla baxdı.
Holston xırıltılı səslə dedi: “Düz eləmədim, hə?”
Pişik ağzını açdı və fısıldamağa başladı. Heyvanın qəribə, şizofrenik sifətinə baxanda Holston başa düşdü ki, niyə Droqan bunun cəhənnəm pişiyi olduğunu düşünürdü. Pişik – ”
Onun fikirlərini yarıda kəsən əllərində və qolunda olan küt və sızıltılı ağrı idi.
*Hiss. Yenidən hiss etməyə başlayıram. İflicim keçir.*
Pişik caynaqlarını irəli verib fısıldayaraq onun üzünə tullandı.
Holston gözlərini yumdu, ağzını açdı. Pişiyin qarnını dişlədi, amma ağzına tükdən başqa heç nə gəlmədi. Pişik ön caynaqları ilə onun qulaqlarını qazımağa başladı. Ağrı təsvirolunmaz dərəcədə dözülməz idi. Holston əllərini qaldırmağa cəhd göstərdi, onlar bir az tərpəndi amma qalxmadı.
Holston başını irəli-geri verib pişiyi kənara tullamaq istədi, bu, bir növ gözlərinə sabun düşmüş adamın hərəkətlərinə bənzəyirdi. Pişik isə öz növbəsində fısıldayıb çığırırdı və onun sifətindən bərk yapışmışdı. Holston yanaqlarından qan axdığını hiss elədi, artıq nəfəs ala bilmirdi. Pişiyin qarnı onun düz burnuna yapışmışdı. Ağzından hava ala bilirdi, amma çox az və tüklə birlikdə. Ona elə gəldi ki, qulaqlarına alışqan üçün olan qaza yatırıblar, sonra isə onlara kibrit vurublar.
Başını arxaya verəndə ondan vahiməli qışqırıq çıxdı. Çox güman ki, Plimut dərəyə yuvarlananda boynu möhkəm zədələnmişdir. Pişik çaşbaş qalaraq arxa oturacağa tullandı.
Holstonun gözündən bir gilə qan gəldi, o yenidən əllərini qaldırmağa cəhd elədi ki, qanı silsin.
Əlləri qucağında əsdi, amma tərpənmədi. Sol qolunun altındakı qoburada 45 kalibrli silahı haqda fikirləşdi.
*Eybi yox, məstan, qoy özümə gəlim, sənin o doqquz canının doqquzunu da birdən alacağam.*
Bədəni yenə də içəridən qaynayırdı, silindr blokunun altında qalan və şübhəsiz ki, sınan ayaqları küt ağrı verirdi, qıçları da dəhşət göynəyirdi – bu bir növ üstündə oturduğumuz və qıc olan əzanın sonradan özünə gəlməsi zaman hiss etdiyimiz şeyi xatırladırdı. Amma ayaqları Holstonun heç vecinə də deyildi, onurğa sütununun zədələnmədiyini bilmək onun üçün kifayət idi, o, ömrünün qalan hissəsini ölü cəmdəyə yapışmış danışan baş olaraq keçirtmək istəməzdi.

*Bəlkə elə mənim özümün də bir neçə canım var.*
Pişiyin axırına çıxmaq. Əsas məsələ bu idi. Sonra isə burdan canımı xilas eləmək. Ola bilsin ki, kimsə gəldi, onda hər iki problem birdən həll olacaq. Amma saat 4:30-da hansısa Allah bəndəsinin buradan keçməsi... amma hər şey ola bilər.
Pişiyin onun üzündə olması dözülməz idi, amma indi onun arxada – Holstonun görə bilməyəcəyi yerdə oturması daha da pis idi. O, güzgüdən pişiyə baxmaq istədi, lakin alınmadı. Güzgü yana əyilmişdi və ona baxanda otlu dərədən başqa bir şey görsənmirdi.
Arxa oturacaqdan səs gəldi. Elə bil ki, parçanı asta-asta cırırdılar.
Pişik xırıldayırdı.
*Cəhənnəm pişi! Lənətə gələsən səni! Yaramaz yenə yuxulayır.*
Lap tutalım yatmırdı, özlüyündə plan qururdu, guya o, neyləyə bilərdi ki? Ağırlığı 4 funtdan çox olmayan bu balaca, arıq şey neyləyə bilərdi ki? Bundan da əlavə.. Holston bilirdi.. yox.. o, əmin idi ki.. çox tezliklə əllərini işə sala biləcək.
Holston oturub gözləyirdi. O, bədəninin daxildən necə qaynadığını hiss edirdi.
Dan yeri qızarmağa başlayırdı. Uzaqdan quş səsi eşidildi.
O, yenə əllərini tərpətməyə çalışdı, əlləri bir az qalxdı, sonra yenidən qucağına düşdü.
*Hələ yox. Hələ yox. Amma az qalıb.*
Arxadan tappıltı eşidildi. Holston başını çevirdi və pişiyin ağ-qara sifətinə, içində böyük tünd bəbəklərinin parıldadığı gözlərinə baxdı.
Pişiklə danışmağa başladı.
“Məstan, indiyə kimi aldığım elə sifariş olmayıb ki, onu yerinə yetirməyim. Amma bu birinci ola bilər. Ola bilər, amma olmayacaq. Maksimum beş dəqiqə və mənim əllərim yenə işləyəcək. Məndən sənə məsləhət, pəncərələr açıqdır, düş qaç. Quyruğun da səndə qalsın”.
Pişik gözlərini Holstondan çəkmirdi.
Holston yenə əllərini qaldırmağa cəhd göstərdi, əlləri azca qalxdı, amma yaman əsirdi. Yenidən qucağına düşdü. Əlləri qucağından sürüşüb, oturacağa dəydi. Oturacağın üstündə onlar böyük tropik hörümçək kimi solğun-solğun parıldayırdılar.
Pişik dişlərini ağardıb Holstona baxırdı.
*Mən səhv işmi tutmuşam?* – deyə Holston çaşbaş qalmışdı. O, öz instinkt və hisslərinə güvənən adam idi və indi ona elə gəldi ki, heç də yaxşı olmayan şeylər baş verəcək. Pişiyin əzələləri gərildi və o tullanan kimi Holstonun onun nə etmək istədiyini başa düşdü və qışqırmağa başladı.
Pişik Holstonun qucağına tullandı, dırnaqlarını çıxartdı və qazımağa başladı.
O an Holston bədəninin tam iflic vəziyyətində olmadığı üçün dərindən təəssüf elədi. Ağrı təsvirolunmaz idi. Dözülməz! O heç vaxt yer üzündə belə bir ağrının mövcud olduğunu ağlına belə gətirməzdi. Pişik ağlasığmaz hiddətlə onun bədənini qazımağa davam edirdi.
Holston qışqırırdı, ağzı geniş açılmışdı, elə bu vaxt pişik düz onun ağzına tullandı. O anladı ki, bu elə-belə pişik deyil. Təbiətində qəddarlıq var. Öldürmək.
Holston son dəfə ağ-qara üzə nəzər yetirə bildi, pişik qulaqlarını geriyə vermişdi, gözləri iri və şahanə nifrətlə dolu idi. Üç adamın axırına çıxmışdı, indi isə növbə Con Holstonun idi.
Pişik tüklü mərmi kimi Holstonun ağzına atıldı. Holston boğulmağa başladı. Pişiyin qabaq pəncələri Holstonun dilini bir parça qaraciyər kimi didikləməyə başladı. Holstonun ürəyi bulandı və o qusmağa başlayanda mədəsindən gələn onun nəfəs borularını yapışdı. O boğulurdu.

Bütün bunlara baxmayaraq, onun sağ qalmaq istəyi onun iflic olmuş əllərini üstələdi. O, pişikdən yapışmaq istəyirdi, əllərini asta-asta qaldırırdı. *Aman Allahım – deyə düşündü.*
Pişik bədənini sıxaraq Holstonun ağzının içinə girməyə çalışırdı, Holstonun çənəsi getdikcə daha geniş açılırdı. O, əlləri qaldırırdı ki, pişiyi tutsun. Uzaqlaşdırsın. Sonra isə onu məhv etsin. Amma əlinə quyruqdan başqa bir şey gəlmirdi.
Pişiyin artıq bütün bədənini Holstonun ağzına sala bilmişdi. Onun o qəribə, ağ-qara bədəni artıq Holstonun boğazında idi.
Holston artıq qalın səslə öyüməyə başlamışdı, onun boğazı şlanq kimi şişirdi.
Bədəni dartınmağa başladı. Əlləri qucağına düşdü. Barmaqları özündən xəbərsiz halda budlarını döyəcləyirdi. İfadə daşımayan gözləri parıldadı, sonra isə maşının açıq pəncərəsindən sökülən dana zilləndi.
Açıq ağzından tüklü quyruq çıxırdı...Yarısı ağ, yarısı qara. Quyruq irəli-geriyə gedirdi. Sonra isə yoxa çıxdı.
Hardasa uzaqdan quş səsi gəldi. Konnektikutun gözdən iraq kəndində, donmuş tarlaların üzərində nəfəskəsici sükut arasında günəş doğdu.

Fermerin adı Uill Russ idi. O öz yük maşınında Pleyser's Qlenə gedirdi ki, maşınını yoxlanışdan keçirib təftiş stikerini alsın, amma gözü birdən yol kənarındakı dərədə olan parıldayan şeyə sataşdı. O, maşınını kənara çəkdi və xəndəkdə əzik-üzük olmuş, radiatoru tikanlı məftillə bürünmüş Plimutu gördü.
O, aşağı düşdü. "Aman Allahım" – mızıldayaraq dərindən nəfəs aldı. Sükanın arxasında dimdik oturmuş və gözləri sonsuzluğa zillənmiş oğlanı gördü. O oğlan bir də heç vaxt səs verməyəcəkdi. Üzü qan içində idi. Təhlükəsizlik kəmərini bağlanmışdı.
Maşının qapısı açılmaq bilmirdi, amma Russ çətinliklə də olsa birtəhər aça bildi. O, özünü maşından içəri salıb kəməri açdı ki, oğlanın şəxsiyyətini təsdiq edəcək bir sənəd axtarıb tapsın. O, əlini elə pencəyə toxundurmaq istədi ki, oğlanın köynəyinin altında – qarın hissəsində nəyinsə tərpəndiyini gördü.. Tərpənirdi.. və qabarmağa başlayırdı. Köynəkdə qan ləkələri əmələ gəlirdi, al qızılgülün çiçəklənməsinə bənzəyirdi bu.
"Lənətə gəlsin, nədir bu?" – deyə Russ ölünün köynəyini yuxarı qaldırdı.
Uill Russ qulaqbatırıcı səslə qışqırdı.
Holstonun göbəyindən bir az yuxarıda dəlik açılmışdı. Deşikdən böyük və parlaq gözləri olan, üzü qana bulanmış ağ-qara pişik baxırdı.
Russ səndələdi, qışqırdı və əlləri ilə üzünü örtdü. Yaxınlıqdakı tarlalardan birindən sürü ilə qara göyə qalxdı.
Pişik açdığı dəlikdən çıxdı və heç nə olmamış kimi gərnəşməyə başladı.
Sonra isə pəncərədən çölə tullandı. Russ onun hündür, qurumuş otların arasından keçib getdiyini gördü. Pişik gözdən itdi.
"O, elə bil ki, harasa tələsirdi" – deyə az sonra Russ yerli qəzet müxbirlərinə verdiyi müsahibəsində bildirdi.
Elə bil ki, tamamlanmamış işi qalmışdı.

**İngilis dilindən tərcümə edən: Lalə Balabəyova**